**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NAXÇIVAN BÖLMƏSİ**

*Əlyazması hüququnda*

**ELDƏNİZ ORUC oğlu HƏSƏNLİ**

# KİÇİK VƏ ORTA BİZNESİN İNKİŞAFI VƏ ƏHALİNİN MƏŞĞULLUĞUNUN TƏMİN EDİLMƏSİ PROBLEMLƏRİ

**(Naxçıvan Muxtar Respublikası timsalında)**

**İxtisas: 5308.01– Ümumi iqtisadiyyat**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**NAXÇIVAN – 2018**

Dissertasiya işi Azərbaycan Universitetinin “Ümumi iqtisadiyyat” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Əli Xudu oğlu Nuriyev**
AMEA-nın müxbir üzvü,
iqtisad üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Telman Qurban oğlu Babayev**
iqtisad üzrə elmlər doktoru

**Teymur Abbas oğlu Abbasov**
İqtisad üzrə elmlər doktoru

**Aparıcı təşkilat:** **Naxçıvan Dövlət Universitetinin“İqtisadiyyat” və “Mühasibat uçotu və maliyyə” kafedraları**

Müdafiə _________ 2018-ci il tarixdə saat ___-da AMEA-nın Naxçıvan Bölməsinin nəzdində fəaliyyət göstərən D.01.211 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76, AMEA Naxçıvan Bölməsi, əsas bina, akt zalı.

Dissertasiya ilə AMEA Naxçıvan Bölməsinin elektron kitabxanasında tanış olmaq olar.

Avtoreferat “____” ________ 2018-ci ildə göndərilmişdir.

**B/D.01.211. Dissertasiya**
**Şurasının elmi katibi:** **dosent E.A.Şıxəliyev**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan öz müstəqilliyini əldə etdi və bazar iqtisadiyyatı yolu ilə getməyə başladı. Keçid iqtisadiyyatı dövründə ölkəmizdə bazar sisteminin əsası olan azad sahibkarlığın ilkin təzahür formaları meydana gəlmiş və inkişaf strategiyası müəyyənləşdirilmişdir. Dünya təcrübəsi göstərir ki, milli iqtisadiyyatın inkişafı və məşğulluq səviyyəsinin yüksəldilməsində kiçik və orta biznesin inkişafı əhəmiyyətli rol oynaya bilər. Biznes formalarının, xüsusilə də kiçik biznesin inkişafı, mülkiyyət formalarının təşəkkülü və inkişafına, azad rəqabətə, yeni ideyaların və ixtiraların istehsala tətbiqinə, əhalinin məşğulluğunun yüksəldilməsinə zəmin yaratmaqla cəmiyyətdə sosial gərginliyin aradan qaldırılmasına həlledici təsir göstərir.

Sənaye cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsini nəzərə almaqla demək olar ki, bunun üçün dövlət mülkiyyətinin özəlləşdirilməsi proqramına uyğun olaraq kiçik və orta biznesin inkişafı üçün möhkəm hüquqi baza yaradılmalıdır. Məhz bunu nəzərə almaqla ölkəmiz ikinci dəfə öz müstəqilliyini bərpa etdikdən sonra milli iqtisadiyyatı formalaşdırmaq, kiçik və orta biznesi inkişaf etdirmək üçün yeni qanunlar qəbul etdi. Bu qanunlar və müvafiq normativ-hüququ aktlar kiçik və orta biznesin inkişafı və məşğulluq səviyyəsinin yüksəldilməsinə müsbət təsir göstərmişdir. “Sahibkarlıq fəaliyyəti haqqında”,[1] “Kiçik sahibkarlığa dövlət köməyi haqqında”,[2] “Dövlət mülkiyyətinin özəlləşdirməsi haqqında”,[3] “Məşğulluq haqqında”[4] və s. kimi Azərbaycan Respublikası qanunlarının kiçik və orta sahibkarlığın inkişafına yönəlmiş iki Dövlət Proqramının (1997-2000-ci və 2002-2005-ci illər), Prezident İlham Əliyevin sosial-iqtisadi inkişafı sürətləndirmək siyasəti, bu siyasətin reallaşması vasitəsi kimi qəbul etdiyi iki Dövlət Proqramının “Azərbaycan Respublikası Regionlarının Sosial-İqtisadi İnkişafı Dövlət

---

[1]“Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu. http://e-qanun.az/framework/7920

[2]“Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Respublikasının Qanunu. http://www.economy.gov.az/article/small-business/21616

[3]“Dövlət mülkiyyətinin özəlləşdirməsi haqqında” Azərbaycan Respublikasının Qanunu. http://www.e-qanun.az/alpidata/framework/data/0/f_144.htm

[4]“Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanunu. www.e-qanun.az>framework

Proqramında (2004-2008-ci illər)”[5] qarşıya qoyulmuş vəzifələrin və “Azərbaycan Respublikası Regionlarının 2009-2013-cü illərdə Sosial İqtisadi İnkişafı Dövlət Proqramı”,[6] bir sıra başqa proqram və tədbirlərin qəbul edilməsinə baxmayaraq, respublikamızda, o cümlədən Naxçıvan Muxtar Respublikasında hələ də kiçik və orta biznesin inkişafı və əhalinin faktiki məşğulluq səviyyəsi nisbətən aşağıdır və onun yüksəldilməsinə ehtiyac var.

Bu baxımdan bütövlükdə ölkədə və onun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi problemlərin, xüsusilə məşğulluq probleminin aradan qaldırılması, bu məsələlərin həllində kiçik və orta biznesin rolunun artırılması, habelə sahibkarlıq formaları ilə məşğulluq arasında qarşılıqlı asılılığın araşdırılması zərurətini meydana çıxarır ki, bu da dissertasiya mövzusunun aktuallığını təsdiqləyir.

**Problemin öyrənilmə səviyyəsi**. Bazar iqtisadiyyatı yolu ilə gedən dünya ölkələrinin təcrübəsi əsasında sahibkarlıq nəzəriyyəsinin və müxtəlif növlü mülkiyyət formalarının elmi-nəzəri və metodoloji problemləri fundamental surətdə bir sıra xarici və MDB məkanı ölkələrin iqtisadçı amilləri tərəfindən işlənilmişdir. Məsələn, A.Marşal, C.B.Klark, Y.Şumpeter, F.Xayek, V.Zombart, E.Dolan, A.Xoskinq, A.Livşiç, A.Abalkin, A.V.Avilov, A.Blinov, M.V.Klinova, A.E.Kotlyar, Q.V.Polyak, C.S.Mill, S.M.Keyns, İ.B.Sey, M.Fridman və digər alimlər tədqiqatlarında bu mövzunun bir sıra aspektlərinin öyrənilməsinə geniş yer vermişdir.

Ölkəmizin yeni iqtisadi sistemə, bazar iqtisadiyyatının transformasiyası şəraitində kiçik və orta biznesin təşəkkül tapması bu sahələr üzrə problemlərin elmi araşdırılmasına da diqqəti artırmış, bu istiqamətdə tədqiqatlara meyli xeyli gücləndirilmişdir. Bazar iqtisadiyyatı, habelə kiçik və orta biznesin tədqiqi problemləri ilə Azərbaycanın bir sıra alimləri, o cümlədən A.Nadirov, T.Bəliyev, Ə.Nuriyev, T.Quliyev, N.Əhmədov, A.Abbasov, A.Ələsgərov, Z.Səmədzadə, Ş.Muradov, T.Əliyev, Ə.Əlirzayev, A.Şəkərəliyev, P.Quliyev, Q.Manafov, H.Allahverdiyev, M.Meybullayev, B.Ataşov və digərləri məşğul olmuşlar.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, sahibkarlıq problemi daha geniş və əhatəli olduğuna görə, göstərilən iqtisadçı alimlər onun bu və ya digər aspektlərini tədqiq etmiş və kompleks şəkildə öyrənməmişlər. Eyni zamanda

---

[5]Azərbaycan Respublikası Regionlarının 2004-2008-ci ilərdə Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı. Bakı: Nurlar, 2004, 160 s.

[6]Azərbaycan Respublikası Regionlarının 2009-2013-cü illərdə Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı. http://dgk.nmr.az/files/uploader/2009.04.14_80.pdf

qeyd etmək lazımdır ki, Azərbaycan iqtisadiyyatının indiki reallığı səviyyəsində sahibkarlıq fəaliyyətinin inkişafının obyektiv zəruriliyi, şərtləri və gələcək perspektivləri ilə bağlı aparılan tədqiqatlar qənaətləndirici olmamışdır. Naxçıvan Muxtar Respublikasında da əmək ehtiyatlarından səmərəli istifadə problemləri müəyyən dərəcədə tədqiq olunsa da, kiçik və orta biznesin inkişafı əhalinin məşğulluğunun təmin edilməsilə qarşılıqlı əlaqədə tədqiq olunmamışdır. Məhz bu baxımdan geniş elmi problem kimi sahibkarlığın mühüm tərkib həssəsi olan kiçik və orta biznesin inkişafı, Azərbaycan iqtisadiyyatında, o cümlədən Naxçıvan MR iqtisadiyyatındakı xüsusiyyətləri və qanunauyğunluqları, əhalinin məşğulluq problemləri ilə kompleks şəkildə tədqiq edilməsi mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edir. Elə bu zərurət dissertasiya işinin mövzusunun seçilməsini şərtləndirmiş, tədqiqatın məqsəd və vəzifələrini müəyyən etmişdir.

**Dissertasiya işinin məqsəd və vəzifələri**. Tədqiqatın əsas məqsədi ölkəmizdə bazar iqtisadiyyatı şəraitində kiçik və orta sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafı xüsusiyyətlərini müəyyənləşdirmək və Muxtar Respublikada kiçik və orta sahibkarlığın inkişafı və məşğulluğun səviyyəsinin yüksəldilməsi istiqamətində təklif və tövsiyələr hazırlamaqdır. Dissertasiya işinin məqsədinə uyğun olaraq aşağıdakı vəzifələr qarşıya qoyulmuş və həll edilmişdir:

- bazar iqtisadiyyatı şəraitində kiçik və orta biznesin inkişafının zəruriliyini əsaslandırma;
- kiçik və orta biznesin inkişaf mərhələlərini tədqiq etmək və xüsusiyyətlərini aşkara çixarmaq;
- dünya təcrübəsinə uyğun olaraq kiçik və orta müəssisələrin təşkilinin və səmərəli fəaliyyətinin nəzəri-metodoloji əsaslarinin öyrənilməsi;
- kiçik və orta biznesin müasir təşkili formalarının və fəaliyyət xüsusiyyətlərinin aşkar edilməsi;
- müasir şəraitdə əhalinin məşğulluğunun tənzimlənməsi xüsusiyyətlərinin müəyyən edilməsi;
- Muxtar Respublikada fəaliyyət göstərən kiçik və orta biznes sahələrində məşğulluğun formalaşması qanunauyğunluqlarının üzə çıxarılması;
- kiçik və orta biznesin formalaşması və tarazlı inkişaf xüsusiyyətlərinin müəyyənləşdirilməsi;
- kiçik və orta biznesin inkişafi və əhalinin məşğulluq səviyyəsi arasında əlaqənin araşdırılması;
- Muxtar Respublika əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsində kiçik və orta biznesin rolunun müəyyənləşdirilməsi;
- kiçik və orta bizesin dövlət tənzimlənməsi imkanlarının aşkara çıxa-

rılması;

- kiçik və orta biznesin inkişafina dövlət yardımı və onun stimullaşdırılması vasitələrinin müəyyən edilməsi;

- Naxçıvan MR iqtisadiyyatının müasir vəziyyəti və inkişaf perspektivləri nəzərə alınmaqla əhalinin məşğulluğunun tənzimlənməsinin təkmilləşdirilməsinin əsas istiqamətlərinin müəyyən edilməsi.

**Tədqiqatın obyekti** Naxçıvan Muxtar Respublikasında kiçik və orta biznesin inkişafı və əhalinin məşğulluğudur.

**Tədqiqatın predmeti** kiçik və orta biznesin inkişafının əhalinin məşğulluğuna təsiri istiqamətləridir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqatın nəzəri və metodoloji əsasını iqtisad elminin tanınmış nümayəndələrinin kiçik və orta biznesin inkişafına həsr edilmiş müddəaları, elmi tədqiqatları, tövsiyələri və fikirləri təşkil edir. Dissertasiya mövzusu tədqiq edilərkən problemlə bilavasitə əlaqədar olan Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilmiş qanun, qərar və proqramlardan, ölkə Prezidentinin fərmanlarından, hökümətin qərar və sərəncamlarından, habelə qanunvericilk aktlarından və normativ sənədlərindən, dövri mətbuatdan istifadə edilmişdir.

Tədqiqatın yerinə yetirilməsi prosesində müqayisə, analitik ümumləşdirmə, sistemli təhlil, riyazi-statistik təhlil, təhlil-sintez və s. metodlarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin hesabatları, bülletenləri, İqtisadi İnkişaf Nazirliyi, Vergilər Nazirliyi və Maliyyə Nazirliyinin məlumatları, sosioloji tədqiqatların nəticələri və s. təşkil edir.

**Tədqiqatın elmi yeniliyi**: Kiçik və orta biznesin inkişafının elmi əsaslarının öyrənilməsi, əhalinin məşğulluğu ilə əlaqənin təhlili əsasında Naxçıvan MR-da kiçik və orta biznesin inkişafı perspektivleri müəyyən edilmiş və əhalinin məşğulluğunun təmin olunması istiqamətində təklif və tövsiyələr işlənib hazırlanmışdır. Bu baxımdan nəzəri və praktiki aspektdə:

- Azərbaycanda və Naxçıvan Muxtar Respublikasında bazar sisteminin yeni strukturlarının formalaşmasında kiçik və orta biznes fəaliyyətinin rolu və xüsusiyyətləri aşkara çıxarılmışdır;

- iqtisadi ədəbiyyatlarda "biznes" və "sahibkarliq" anlayışlarının şərhində mövcud olan fikirlər araşdırılaraq "biznes" anlayışının "sahibkarlıq" anlayışından daha geniş olduğu əsaslandırılmışdır;

- kiçik və orta sahibkarlığı müəyyən edən meyarlar iqtisadi cəhətdən əsaslandırılmışdır və onlardan gələcəkdə istifadə tələbləri müəyyənləşdirilmişdir;

- bazar iqtisadiyyati şəraitində muxtar respublika iqtisadiyyatının inkişafında və məşğulluğun təmin olunmasında kiçik və orta biznesin mühüm rolu hərtərəfli elmi cəhətdən əsaslandırılmışdır;

- müasir şəraitdə əhalinin məşğulluğunun dövlət tərəfindən tənzimlənməsi kompleks-sistemli şəkildə təhlil edilmiş və zəruriliyi əsaslandırılmışdır;

- kiçik və orta biznesin inkişafı ilə əhalinin məşğulluq səviyyəsi arasında qarşılıqlı əlaqənin xüsusiyyətləri müəyyən edilmişdir;

- kiçik və orta sahibkarlığın inkişafi ilə bağlı çətinliklərin və çatişmamazlıqların aradan qaldırılması üzrə xüsusi dövlət proqramlarının əsas istiqamətləri müəyyənləşdirilmişdir;

- Naxçıvan Muxtar Respublikasında kiçik və orta biznesin inkişafına dövlət yardımı, onun stimullaşdırılması mənbələri və istiqamətləri müəyyən edilmişdir;

- Muxtar Respublikada kiçik və orta biznesin inkişafının məşğulluğa təsirinin tənzimlənməsinin əsas istiqamətləri müəyyən edilmişdir.

**İşin praktiki əhəmiyyəti** ondan ibarətdir ki, onun əsas müddəaları, əldə olunmuş nəticə və təkliflər respublikada bazar iqtisadiyyatının inkişafı konsepsiyasının həyata keçirilməsində, milli iqtisadiyyatın və regional iqtisadiyyatın daha da inkişaf etdirilməsində öz müsbət rolunu və əhəmiyyətini göstərəcəkdir.

Tədqiqat zamanı irəli sürülən elmi-nəzəri fikirlər iqtisadi nəzəriyyə kursunda müvafiq mövzuların tədrisi prosesində, Naxçıvan MR-in sosial-iqtisadi inkişaf konsepsiyasının hazırlanmasında istifadə oluna bilər.

Dissertasiyada irəli sürülən təkliflər kiçik və orta biznesin inkişafının stimullaşdırılması və tənzimlənməsi, məşğulluğun səviyyəsinin yüksəldilməsi məqsədilə konkret proqramların hazırlanmasında, biznes və məşğulluq problemlərinin gələcəkdə daha geniş tədqiq edilməsində, iqtisadi ədəbiyyat və dərsliklərin hazırlanmasında istifadə edilə bilər.

Mövzuya dair çap olunmuş məqalələr "Azərbaycan" Universitetində tədris edilən "Sahibkarlığın əsasları", "Biznes fəaliyyətinin təhlili" və "Biznesin əsasları" fənnlərinin öyrənilməsində istifadə edilə bilər.

**İşin aprobasiyası və nəticələrinin tətbiqi**. Dissertasiyanın əsas müddəaları bir sıra elmi seminar, beynəlxalq və respublika səviyyəli elmi-praktik konfranlarda məruzə edilmişdir.

Tədqiqatın sonunda əldə edilən nəticə və təkliflər Naxçıvan MR-ın İqtisadiyyat və Sənaye Nazirliyinə təqdim olunmuş və onların tətbiq olunması haqda müsbət rəy verilmişdir (30.01.2015, №01/125).

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **girişində** mövzunun aktuallğı, tədqiqatın məqsədi və vəzifələri, predmeti, problemin öyrənilmə səviyyəsi, tədqiqatın elmi yeniliyi və praktiki əhəmiyyəti, işin aprobasiyası şərh edilir və əsaslandırılır.

Dissertasiya işinin I fəsli **"Kiçik və orta biznesin inkişafı və əhalinin məşğulluğunun təmin olunmasının nəzəri-metodoloji əsasları"** adlanır. Bu fəsildə bazar iqtisadiyyatı sisteminin əsasını təşkil edən sahibkarlıq fəaliyyəti və onun formalaşmasına təkan verən iqtisadi mühit bir sıra tarixi inkişaf mərhələlərini keçmiş və tarixi inkişaf dövrlərində insanların işgüzarlıq və sahibkarlıq fəaliyyəti ilə bağlı elmi-nəzəri baxışları Avropa, Şərq, eləcə də Azərbaycanın dünya şöhrətli mütəfəkkirlərinin əsərlərində müxtəlif səpkidə araşdırılmış və bu fikirlər ümumiləşdirilərək müəllifin mövqeyi bildirilmişdir. Bu fəsildə eləcə də kiçik və orta biznesin mahiyyəti, onun formalaşma şərtləri və sosial-iqtisadi inkişafdakı rolu tədqiq edilərək öyrənilmişdir.

Dissertasiyanın I fəslində qeyd olunur ki ki, insanların işgüzarlıq fəaliyyəti və varlanmaq məqsədinə xidmət edən iqtisadi münasibətləri, anlayışları və kateqoriyaları b.e.ə. 384-322-ci illərdə yaşamış Aristotel tərəfindən araşdırılmışdır. Aristotel "Sahibkarlıq" anlayışını işlətməsə də ticarət fəaliyyəti ilə məşğul olmaq, pul toplamaq və ona sahib olmaq kimi fikirlərin inkişafına üstünlük verilmişdir. Aristotel iqtisadi xarakterli tədqiqatında sərvəti pul formasında yığmaq fəaliyyətinə üstünlük vermişdir. Tarixi dövrlər bir-birini əvəz etdikcə Aristotel ticarət, pul vəsaiti ilə pul toplamaq haqqında iqtisadi fikirləri və baxışları ayrı-ayrı mütəfəkkirlər tərəfindən elmi cəhətdən əsaslandırılmış və müxtəlif nöqteyi-nəzərlər irəli sürülmüşdür.

XV-XVII əsrlərdə Qərbdə iqtisadi fikrin başlıca istiqaməti olan merkantilizm cəryanının nümayəndələri A.Monkretyen, T.Mann, Devid Jum və s. cəmiyyətdə sərvətin əsas mənbəyini tədavüldə, ticarətdə axtarmış, yəni əmtəə-pul münasibətlərinin daxili elementlərinin fəallaşmasına üstünlük vermişlər.

Bu sahədə klassik iqtisadi məktəbin nümayəndəsi olan U.Petti (1623-1687) insanların işgüzar fəaliyyəti və gəliri ilə bağlı olan vergi, rüsum, faiz, pul və s. anlayışların dərin elmi-nəzəri təhlilini vermişdir. Y.Pettinin 1662-ci ildə yazdığı "Vergilər və rüsumlar haqqında traktat" əsərində göstərilən anlayışların elmi-nəzəri təhlilinə xüsusi yer verilmişdir.

Fiziokratların nümayəndələri olan Fransua Gene (1694-1774), Tyurqo (1727-1781) və digərləri merkantilistlərdən fərqli olaraq, cəmiyyətin sərvətinin mənbəyini kapitalist əkinçiliyində axtarırdılar və "xalis məhsulu" sərvə-

tin mənbəyi hesab edirdilər. Fiziokratların nümayəndələri istehsalı daha çox öyrənmək, oraya kapital yönəltmək, məhsulun həcmini artırmaq və bunun sahəsində sərvət toplamaq, mənfəət əldə etmək, varlanmaq ideyasına xidmət edirdilər və bütün işgüzar qrupların məhz əkinçiliklə məşğul olmasını tövsiyə edirdilər. Dissertasiya işində müəllif qeyd edir ki, pul, sahibkarlıq və biznes haqqında bir sıra mülahizələr irəli sürmüşlər.

XII əsrdə N.Gəncəvi öz əsərlərində natural təsərrüfat dövründə yaşayan Azərbaycanda mübadilə, ticarət, qızıl, gümüş, mis, pullar, sələm haqqında fikir söyləmiş və əmtəə-pul münasibətlərinin inkişafında onların rolunu göstərmişdir.

XII əsrdə yaşamış böyük Azərbaycan alimi və mütəfəkkiri N.Tusi özünün "Əxlaqi-Nasiri" və "Maliyyə haqqında traktat" əsərlərində, cəmiyyətdə iqtisadi münasibətlərin formalaşması və idarə olunması, sahibkarlıq əxlaqi və onun şərtləri, maliyyə, büdcə, vergi sistemində islahatların aparılması və qiymət haqqında qiymətli fikirlərini irəli sürmüşdür.[7] Daha sonra N.Tusi vergilərin istehsalçıların "marağının canlanmasına xidmət etməsi", tacirlərin vergilərinin tənzimlənməsi, xalqlar və ölkələr arasında ticarət əlaqələrində pulun rolu və s. məsələləri geniş araşdırmışdır.

XVI əsrdə Azərbaycanda vergi siyasəti, ölkələr arasında ticarət münasibətlərinin yaradılması, tacirlərin fəaliyyəti, maddi nemətlərin qeyri-bərabər bölgüsü, yoxsulluq və varlanmağın səbəbləri və s. məsələləri M.Füzulinin (1494-15-56) "Ründü-Zahid", "Mətləül-etiqad" əsərlərində, "Şikayətnamə" adlı məktubunda öz əksini tapmışdır.

XIX əsrin I yarısında Azərbaycanda xalqın iqtisadi yüksəlişi, onun varlanması, təbii sərvətlərdən səmərəli istifadə olunması kimi məsələlərə A.Q.Bakıxanov öz əsərlərində xüsusi diqqət yetirmişdir.

Sonrakı dövrlərdə Azərbaycanın görkəmli nümayəndələri olan Q.B.Zakir, M.Ş.Vazeh, S.Ə.Şirvani, H.B.Zərdabi, N.B.Vəzirov, M.F.Axundov, M.Ə.Sabir və C.Məmmədquluzadə ölkə istehsalının inkişafı, onun stimullaşdırılması metodları idarəetmə prinsipləri, maliyyə, əmtəə, faiz, gömrük, tələbat, təklif, tələb, borc, veksel, satış məsələləri öz əsərlərində elmi-nəzəri səpgidə işıqlandırmışlar.

Tarixi ardıcıllıqla göstərilən və xarakterizə edilən mütəfəkkirlərin elmi-nəzəri fikirləri bir daha təsdiq edir ki, həmin dövrdə sahibkarlıq mühitinin formalaşması üçün sosial-iqtisadi zəmin tədricən yetişirdi. XVII əsrin sonu və XVIII əsrin əvvəllərindən başlayaraq insanların azad iqtisadi təşəb-

---

[7]X.N.Tusi. Əxlaqi-Nasiri. Bakı:"Lider" nəşriyyatı, 2005, 280 s.

büsünə, azad rəqabət, işgüzarlıq fəaliyyətinə əsaslanan bazar sistemi təşəkkül tapmağa başladı.

Dissertasiya işində qeyd edilir ki, sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatının əsasını təşkil etdiyinə görə bu fəaliyyət haqqında mühüm iqtisadi baxışlar və təlimlər əsas etibarilə kapitalizm cəmiyyətində formalaşmışdır. Bu dövrün əsas məqsədini təşkil edən izafi dəyər və mənfəət əldə etmək hərisliyi sahibkarlıq fəaliyyəti haqqında ideyaların və baxışların meydana gəlməsinə şərait yaratdı.

"Sahibkar" fenomeni klassik iqtisadi nəzəriyyəyə XVIII əsrdə daxil olmuşdur. Ümumiyyətlə, "sahibkarlıq" anlayışını ilk dəfə iqtisadi nəzəriyyəyə gətirən mütəffəkirlərdən biri ingilis iqtisadçısı P.Kantilyon olmuşdur. P.Kantilyonun ardınca isə bu anlayışı A.Smit, B.Zombart, Y.Şumpeter, K.Marks, F.Nayt, A.Marşal və digər xarici iqtisadçıları, habelə Azərbaycan iqtisadçılarından T.Vəliyev, Ə.Nuriyev, Q.Manafov, D.Vəliyev, A.Şəkərəliyev, A.Abbasov, N.Əhmədov, A.Məhərrəmov, İ.Alıyev və başqaları bu sahədə mühüm tədqiqatlar aparmış, monoqrafiyalar, kitablar, elmi məqalələr yazmış və çap etdirmişlər.

Azərbaycan iqtisadiyyatında hüquqi və təsərrüfat müstəqilliyi, riskin tamamilə öz üzərinə götürülməsi, idarəetmədə bilavasitə iştirak, bütövlükdə bazar mexanizmi əsasında fəaliyyət göstərən alternativ mülkiyyət formasına malik olmaq, çox da böyük kapital qoyuluşu tələb etməmək kiçik müəssisənin keyfiyyət xüsusiyyətləri hesab edilə bilər.

İqtisadi ədəbiyyatların sintezi göstərir ki, bir çox tədqiqatçılar kiçik və orta müəssisələr üçün ümumi olan meyar tapmağa və əsaslandırmağa çalışmışlar. Fikrimizcə, kiçik müəssisələrə məxsus olan keyfiyyət xüsusiyyətləri orta müəssisələrə də aid edilməlidir. Onlar arasında keyfiyyət fərqi, ilk növbədə, sahibkarların istehsal və idarəetmədə bilavasitə iştirak edib-etməmələri ilə əlaqələndirilməlidir.

Dissertasiya işinin I fəslində müxtəlif iqtisadçılar tərəfindən məşğulluq anlayışına müxtəlif yanaşmalar irəli sürülmüşdür. Bu yanaşmalar ümumiləşdirilərək belə bir fikir irəli sürülür ki, iqtisadi fəaliyyətin elə birinci mərhələsi məhz məşğulluqla bağlıdır. Bu fəsildə qeyd edilir ki, məşğulluq sosial-iqtisadi fəaliyyətin məcmusu olmaqla bərabər, həm də bu prosesdə iştirak edən insanlar arasındakı münasibətləri tənzimləyən bir sistemdir. Məqsədyönlü fəaliyyət nəticəsində tükənməz, artan ehtiyatların ödənilməsi prosesində insanların arasında onların düşüncə və məqsədləri əsasında yaranan münasibətlər məşğulluq münasibətlərini özündə əks etdirir. Bundan əlavə qeyd edilir ki, məşğulluq iqtisadi kateqoriya kimi iş qüvvəsi daşıyıcılarının iş yerləri arasında bölünməsi və onların istehsal vasitələri ilə birləş-

məsi üzrə olan ictimai iqtisadi münasibətləri əks etdirir.

Tarixin müxtəlif inkişaf mərhələlərində məşğulluqla bağlı problemlərin tədqiqinə həmişə xüsusi diqqət göstərilmiş və bu sahədə bir sıra nəzəriyyələr yaranmışdır. Lakin əmək bazarı, işsizlik problemləri kimi, məşğulluq problemi də iri maşınlı istehsal sisteminə qovuşduqdan sonra, iqtisadi-sosial elmlərin mühüm obyektinə çevrilmişdir. Bu zaman məşğulluq anlayışı investisiya, maliyyələşdirmə, iş yerləri, tələb və təklif, kapital yığımı, istehlak, qiymət və əməkhaqqı, bazarın tarazlığı, istehlak davranışı, iş qüvvəsinin dəyəri və s. bu və ya digər mühüm problemlərlə əlaqələndirilməyə başlandı. Bu sahədə A.Smit, D.Rikardo, A.Piqu, K.Marks, C.Keyns, A.Marşal kimi mütəffəkkirlərdən başlayaraq müasir iqtisadçılara qədər müxtəlif dəyərli fikirlər irəli sürülmüşdür.

Dissertasiya işinin I fəslində müəllif məşğulluğa dair klassik və neoklassik nəzəriyyələri geniş təhlil edir, bu iki nəzəriyyə arasındakı fərqləri araşdırmağa calışır və onlara öz münasibətini bildirir.

Hər bir ölkə kimi Azərbaycan Respublikasının da "Məşğulluq Haqqında" Qanunu vardır.[8] Bu Qanunda məşğulluq anlayışının sosial-iqtisadi mahiyyəti öz əksini aşağıdakı kimi tapmışdır. Orada deyildiyi kimi, "Məşğulluq – Azərbaycan Respublikası vətəndaşlarının, Azərbaycan Respublikasında daimi yaşayan, vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin Azərbaycan Respublikasınm qanunvericiliyinə zidd olmayan və bir qayda olaraq, onlara qazanc (gəlir) gətirən hər hansı fəaliyyətidir".[9]

"Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dövlətimizin müəyyən etdiyi siyasəti, məşğulluq sahəsində insanların hüquqları, məşğulluğun tənzimlənməsi, məşğulluq sahəsində həmkarlar ittifaqlarının iştirakı, işaxtaranlarla işəgötürənlərin qanunla müəyyən olunan münasibətləri və digər mühüm məsələləri ətraflı olaraq aydınlıq gətirilmişdir.[10] Hesab edirik ki, dövlət məşğulluq probleminin səmərəli həll edilməsi üçün bütövlükdə iqtisadiyyatın tənzimlənməsinə dair təxirəsalınmaz tədbirlər həyata keçirməlidir.

Dissertasiya işinin II fəsli **"Naxçıvan MR-nda kiçik və orta biznesin inkişafı və onun əhalisinin məşğulluq səviyyəsinə təsirinin qiymətləndi-**

---

[8]"Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu. www.e-qanun.az>framework
[9]Yenə orada
[10]Yenə orada

**rilməsi"** adlanır. Bu fəsildə qeyd edilir ki, XX əsrin axırlarında öz müstəqilliyini əldə etmiş Azərbaycan çox qısa zaman kəsiyində aparılmış uğurlu islahatlar nəticəsində iqtisadi inkişafı təmin etmiş və beynəlxalq aləmdə özünə böyük nüfuz qazanmışdır.

Özünün əlverişli geocoğrafi mövqeyi, zəngin yeraltı və yerüstü sərvətləri və onlardan səmərəli istifadə etmək problemi respublikamızı yaxın və uzaq dövlətlərin xarici siyasətində strateji hədəflərdən birinə çevirmişdir. Təbii ehtiyatların zənginliyi iqtisadi inkişaf üçün böyük əhəmiyyət kəsb edir və regional siyasətin tərkib hissəsi kimi çıxış edir. Regional inkişaf bütövlükdə Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan MR üçün çox aktual problemdir. Onun həllində isə kiçik və orta biznesin inkişafı prioritet istiqamətlərdən birini təşkil edir.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq mülkiyyət çoxnövçülüyü yaranmış və dövlət mülkiyyətinin özəlləşdirilməsinə start verilmişdir. Özəlləşdirmə nəticəsində dövlət mülkiyyəti öz yerini tədricən özəl sektora vermişdir və bu mülkiyyətin payı getdikcə artmışdır. 2017-ci ilin yekununa görə, dövlət qeydiyyatından keçmiş hüquqi şəxs statuslu müəssisələrin sayı 2353-ü keçmişdir ki, bunun da 91 faizini kiçik və orta müəssisələr təşkil edir.

Naxçıvan MR-da aparılan iqtisadi islahatların getdikcə sürətlənməsi iqtisadiyyatın ayrı-ayrı sahələrinin, o cümlədən aparıcı sahə olan sənayedə məhsul istehsalının son 13 ildə 24 dəfəyə yaxın artmasına səbəb olmuşdur. Statistik rəqəmlərin təhlili göstərir ki, son 16 ildə yeni müəssisələrin yaradılması və sayının artması nəticəsində muxtar respublikada sənaye məhsulunun həcmi 2002-ci ildəki 15,6 milyon manatdan 2010-cu ildə 318,6 milyon manata qalxmış və sonrakı illərdə daha da artaraq 2017-ci ildə 967,1 milyon manat təşkil etmişdir.

Naxçıvan iqtisadi zonası üzrə təhlil apararkən məlum olur ki, 2017-ci ildə bütövlükdə muxtar respublika üzrə istehsal olunan sənaye məhsulunun 73,1 faizi Naxçıvan şəhərinin payına düşmüşdür. İkinci yerdə Babək rayonu – 12,2 faiz, üçüncü yerdə Şərur rayonu 9,5 faiz, qalan 5,0 faizi isə Ordubad, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayonlarının payına düşmüşdür.

Beynəlxalq iqtisadi fəaliyyət növlərinin təsnifatına görə, Naxçıvan Muxtar Respublikası sənayesinin işi də maraq doğurur. Bunu aşağıdakı cədvəl 1-dən aydın görmək olar:

*Cədvəl 1*

***Beynəlxalq iqtisadi fəaliyyət növlərinin təsnifatına (İFNT) görə Naxçıvan Muxtar Respublikası sənayesinin işi, min manat***

| *İllər* / *Fəaliyyət və mülkiyyət növləri* | *2000* | *2005* | *2007* | *2008* | *2009* | *2010* | *2017* |
|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| Cəmi | 13765,4 | 41207,3 | 122679,5 | 164451,9 | 212469,1 | 318564,8 | 967060,0 |
| dövlət sektoru | 7268,1 | 13776,6 | 37668,1 | 29371,0 | 33418,2 | 39105,3 | 49878,9 |
| qeyri-dövlət sektoru | 6497,3 | 27430,7 | 85011,4 | 135080,9 | 179050,9 | 279459,5 | 917181,1 |
| Fəaliyyət növləri üzrə | | | | | | | |
| Mədənçıxarma sənayesi | 96,0 | 233,5 | 51,2 | 21,5 | 35,5 | 65,7 | 1024,1 |
| Emal sənayesi | 11287,4 | 0941,8 | 5640,6 | 35571,1 | 80303,6 | 78192,8 | 918228,6 |
| o cümlədən: | | | | | | | |
| İçki və tütün də daxil olmaqla qida məhsullarının istehsalı | 8946,5 | 1171,5 | 6251,3 | 0488,9 | 2801,8 | 1472,9 | 287521,5 |
| Toxuculuq və tikiş sənayesi | 1554,0 | 555,9 | 712,9 | 735,0 | 847,3 | 7169,0 | 34536,8 |
| Dəri, dəridən məmulatlar və ayaqqabı istehsalı | 1,4 | 5,9 | 102,4 | 262,2 | 397,3 | 632,8 | 1141,1 |
| Oduncaqların emalı və ağacdan məmulatların istehsalı | 9,7 | 25,2 | 045,7 | 230,8 | 274,1 | 2635,5 | 44070,1 |
| Sellüloza-kağız istehsalı və nəşriyyat işi | 40,4 | 2125,1 | 4115,2 | 5495,9 | 6823,2 | 10818,0 | 20956,6 |
| Kimya sənayesi | | 16 | 130,4 | 78,3 | 85,4 | 85,9 | 344,5 |
| Rezin və plastik kütlə məmulatları | 1,4 | 80,1 | 3683,9 | 10677,7 | 17399,7 | 19152,9 | 79651,1 |
| Digər qeyri-metal mineral maddələrin istehsalı | 594,0 | 510,3 | 21689,2 | 49190,9 | 58328,0 | 103281,3 | 360639,0 |
| Metallurgiya sənayesi | 3,8 | 117,3 | 1385,8 | 2271,4 | 2860,4 | 3124,6 | 39492,1 |
| Avtomobil, qoşqu və yarımqoşquların istehsalı | | | | | | 2769,8 | 7645,2 |
| Emal sənayesinin digər sahələri | 136,2 | 2134,5 | 4523,8 | 8140,0 | 8486,4 | 27050,1 | 42239,6 |
| Elektirik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi | 2382,0 | 0032,0 | 6687,7 | 8459,3 | 31630,0 | 34508,3 | 44013,5 |

**Mənbə:** Cədvəl Naxçıvan MR DSK-nın və Naxçıvan MR İqtisadi İnkişaf Nazirliyinin materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

1 saylı cədvəlin təhlili göstərir ki, 2000-ci ildə muxtar respublikada cəmi 13,8 milyon manatlıq sənaye məhsulu istehsal olunmuşdur. Bunun isə 7,3 milyon manatı və ya təqribən 53 faizi dövlət, 6,5 milyon manatı və ya 47 faizi isə qeyri-dövlət sektorunda istehsal edilmişdir. Lakin sonrakı illərdə dövlət mülkiyyətinin özəlləşməsi prosesi sürətlənmiş və bunun nəticəsində sənaye məhsulunun qeyri-dövlət sektorunda xüsusi çəkisi artmağa başlamışdır.

Belə ki, 2017-ci ildə bütövlükdə muxtar respublika sənayesində cəmi 967,1 milyon manatlıq sənaye məhsulu istehsal edilmişdir. Bunun 49,9 milyon manatı və ya 5,2 faizi dövlət sektorunda, 917,2 milyon manatı və ya 94,8 faizi qeyri-dövlət sektorunda istehsal edilmişdir.

Müqayisə üçün göstərək ki, sahibkarlığın inkişafı nəticəsində muxtar respublikada 2000-ci ildə qeyri-dövlət sektorunda istehsal edilən sənaye məhsulunun xüsusi çəkisi cəmi 47 faiz təşkil edirdisə sonrakı illərdə sahibkarlığın inkişafı nəticəsində bu rəqəm 94,8 faizə qədər yüksəlmişdir.

Emal sənayesində 2000-2017-ci illərdə daha böyük irəliləyiş qeydə alınmışdır. Belə ki, 2000-ci ildə muxtar respublikanın emal sənayesində cəmi 11,3 milyon manatlıq məhsul istehsal edilmişdirsə, bu rəqəm 2017-ci ildə 918,2 milyon manata çatmış və ya 906,6 milyon manat artmışdır.

Naxçıvan Muxtar Respublikasında aparılan iqtisadi islahatların sürətlənməsi kiçik və orta biznesin həm sayının, həm də iqtisadiyyatda onların rolunun artmasına şərait yaratmışdır.

2 saylı cədvəl məlumatlarından da aydın olur ki, sənaye sahələri üzrə məhsul istehsalında özəl sektorun xüsusi çəkisi bütövlükdə sənayedə daim artmaqda davam etsə də, bəzi sənaye sahələri haqqında bunu demək olmaz.

Cədvəldən göründüyü kimi, bir çox sənaye sahələrində məhsul istehsalında özəl sektorun xüsusi çəkisi aşağı düşmüşdür.

Bütövlükdə muxtar respublikanın emal sənayesində son 17 ildə özəl sektorda dinamik artım baş vermişdir. Belə ki, əgər 2000-ci ildə sənaye sahələri üzrə məhsul istehsalında özəl sektorun xüsusi çəkisi 82 faiz təşkil edirdisə bu rəqəm 2017-ci ildə 96,0 faizə çatmışdır.

*Cədvəl 2*

***Sənaye sahələri üzrə məhsul istehsalında özəl sektorun xüsusi çəkisinin dinamikası (%-lə)***

| *S\N* | | *2000* | *2005* | *2010* | *2017* |
|---|---|---|---|---|---|
| | Cəmi | 100,0 | 100,0 | 100,0 | 100 |
| 1 | Mədənçıxarma sənayesi | 0,7 | 0,6 | 0,1 | 0,1 |
| 2 | Emal sənayesi | 82,0 | 75,1 | 87,3 | 96,0 |
| 2.1 | İçki və tütün də daxil olmaqla qida məhsullarının istehsalı | 65,0 | 27,1 | 25,6 | 29,7 |
| 2.2 | Toxuculuq və tikiş sənayesi | 11,3 | 15,9 | 5,4 | 3,6 |
| 2.3 | Dəri, dəridən məmulatlar və ayaqqabı istehsalı | 0,01 | 0,01 | 0,2 | 0,12 |
| 2.4 | Oduncaqların emalı və ağacdan məmulatların istehsalı | 0,07 | 0,3 | 4,0 | 4,6 |
| 2.5 | Sellüloza-kağız istehsalı və nəşriyyat işi | 0,3 | 5,2 | 3,4 | 2,17 |
| 2.6 | Kimya sənayesi | - | 0,04 | 0,03 | 0,04 |
| 2.7 | Rezin və plastik kütlə məmulatları istehsalı | 0,01 | 0,4 | 6,0 | 8,23 |
| 2.8 | Digər qeyri-metal maddələrin istehsalı | 4,3 | 20,7 | 32,3 | 37,3 |
| 2.9 | Metallurgiya sənayesi | 0,03 | 0,3 | 1,0 | 4,08 |
| 2.10 | Avtomobil, qoşqu və yarımqoşquların istehsalı | - | - | 0,9 | 0,8 |
| 2.11 | Emal sənayesinin digər sahələri | 1,0 | 5,2 | 8,5 | 4,37 |
| 3 | Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi | 17,3 | 24,3 | 10,8 | 4,55 |
| 4 | Su təchizatı, çirkli suların və tullantıların təmizlənməsi | - | - | 1,8 | 0,4 |

**Mənbə**: Cədvəl Naxçıvan MR DSK-nın və Naxçıvan MR İqtisadi İnkişaf Nazirliyinin materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl məlumatlarının təhlili göstərir ki, tədqiqat aparılan dövrdə emal sənayesi sahələrinin bəzilərində özəl sektorun payı artmış, bəzilərində isə azalma müşahidə olunmuşdur. Məsələn, 2000-ci ildən 2017-ci ilə qədər içki və tütün də daxil olmaqla qida məhsullarının istehsalı 65,0 faizdən 29,7 faizə, mədənçıxarma sənayesi 0,7 faizdən 0,1 faizə, elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi 17,3 faizdən 4,55 faizə, toxuculuq və tikiş sənayesi 11,3 faizdən 3,6 faizə qədər azalmış, digər sahələrdə isə özəl sektorun xüsusi çəkisinin dinamikasında artım baş vermişdir.

Belə ki, 2000-2017-ci illərdə oduncaqların emalı və ağacdan məmulatların istehsalı dinamikası 0,07 faizdən 4,6 faizə, sellüloza-kağız istehsalı və nəşriyyat işi sahəsində 0,3 faizdən 2,2 faizə, rezin və plastik kütlə məmulatları istehsalı 0,01 faizdən 8,2 faizə, habelə digər qeyri-metal mineral maddələrin istehsalı sahəsində özəl sektorun xüsusi çəkisi 4,3 faizdən 37,3 faizə

qədər artmışdır.

Ölkəmizdə kiçik və orta biznesin inkişafı bütövlükdə iqtisadiyyatın inkişafına güclü təsir göstərir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, o ölkələrdə kiçik və orta sahibkarlıq sürətlə inkişaf edir ki, dövlət bu sahədə kiçik və orta biznesin inkişafı üçün güzəştlı qaydada yanacaq verir, hər hektar taxıl sahəsi üçün subsidiyalar verir və s. Çünki kiçik və orta sahibkarlıq inkişaf etmədən bütövlükdə iqtisadiyyatın yüksək səviyyədə inkişafından söhbət gedə bilməz.

Ümumiyyətlə, bu fəsildə xüsusi olaraq qeyd edilir ki, ölkəmizdə və onun tərkib hissəsi olan Naxçıvan MR-də normativ hüquqi sənədlərə uyğun olaraq kiçik və orta biznesin davamlı inkişafının təmin edilməsi, sahibkarlıq qurumlarının yaradılması məqsədilə mühüm tədbirlər həyata keçirilmişdir.

"Sahibkarlığın inkişafına mane olan müdaxiləlrin qarşısının alınması haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 sentyabr 2002-ci il tarixli[11] və Naxçıvan MR Ali Məclisi Sədrinin 30 sentyabr 2002-ci il tarixli fərmanları özəl sektorun inkişafında mühüm rol oynamışdır.[12] Naxçıvan MR Nazirlər Kabinetinin 03 dekabr 2002-ci il tarixli 129 №-li qərarı ilə sahibkarlığa dövlət maliyyəköməyini gücləndirmək məqsədilə Sahibkarlığa Kömək Fondu yaradılmışdır.[13]

Naxçıvan MR Ali Məclisi Sədrinin 2006-cı il aprel, 2007, 2008, 2009-cu ilin mart aylarında sahibkarlara keçirdiyi görüşlərdə, həmçinin istifadəyə verilən yeni müəssisələrin açılış mərasimində iştirak edərkən sahibkarların problemləri ilə şəxsən maraqlanması özəl sektora göstərilən diqqət və qayğının nümunəsi kimi dəyərləndirilməlidir.

Dissertasiya işinin **"Naxçıvan Muxtar Respublikasında məşğulluq səviyyəsinin yüksəldilməsi istiqamətləri"** adlanan III fəslində qeyd olunur ki, sahibkarlıq fəaliyyətinin, formalaşması və inkişafı özünün mövcud səviyyəsinə çatmaq üçün çox uzun və mürəkkəb bir yol keçmişdir.

Naxçıvan Muxtar Respublikasında biznesin strukturunda müstəqilliyin

---

[11]"Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. http://sehiyye.gov.az/sahibkarlqn_ferman.html

[12]Sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətidir. http://www.serqqapisi.az/index.php/iqtisadiyyat/12573-sahibkarl-gh-n-inkishaf-igtisadi-siyasaetin-prioritet-istigametidir.

[13]Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. http://www.e-qanun.az/framework/18447

ilk dövrlərinə nisbətən müsbət dəyişikliklər müşahidə olunmuşdur. Belə ki, istehsal sahəsində fəaliyyət göstərənlərin sayı azlıq təşkil etsə də, bu proses bu gün artmaqda davam edir.

Kiçik sahibkarlıq sosial problemlərin, xüsusilə işsizliyin aradan qaldırılmasında böyük üstünlüklərə malikdir. Lakin buna baxmayaraq, Azərbaycanda kiçik sahibkarlığın formalaşması başa çatmayıb. Bu baxımdan kiçik sahibkarlığın investisiya mübadiləsi zamanı regional mütləq fərqləndirilməlidir. Çünki aparılan araşdırmalar göstərir ki, ölkədə fəaliyyət göstərən kiçik və orta biznesin təqribən 75-80 faizi Bakı-Sumqayıt iqtisadi zonasında yerləşdirilmişdir. Ona görə də "Regionların Sosial-İqtisadi İnkişafına dair Dövlət Proqramları" (2004-2008, 2009-2013, 2014-2018-ci illər) qəbul edilərkən bu məsələ nəzərə alınmışdır.[14]

Bu Dövlət Proqramlarına uyğun olaraq Naxçıvan MR-da məşğulluq səviyyəsinin yüksəldilməsi istiqamətləri müəyyən edilmiş və nəticədə muxtar respublikada 2004-2014-cü illər ərzində 62 mindən çox yeni iş yerləri açılmışdır.

Dissertasiya işində dövlətin maliyyə-kredit siyasətinin bir istiqaməti kimi kiçik sahibkarlıq sahəsində elmi-texniki tərəqqini tətbiq edən subyektlərə yardım göstərmək və onları müdafiə etmək məsələləri də özünün geniş təhlilini tapmışdır.

Beləliklə, Naxçıvan MR-da işsizliyin aradan qaldırılması və bu problemin tam həll edilməsi məqsədilə məşğulluq proqrammı hazırlanmış və onun həyata keçirilməsi dövlət nəzarətinə götürülmüşdür. Hazırki şəraitdə işçizliyin aradan qaldırılmasının əsas yolu kiçik və orta biznesin yaradılmasına və inkişafına hərtərəfli şərait yaradılması ilə bağlı olduğundan dövlət səviyyəsində bu sahənin inkişafına diqqət daha da artırılmışdır.

Dissertasiya işinin "Nəticə" hissəsində tədqiqat nəticəsində əldə edilmiş əsas nəticələr, irəli sürülən təklif və tövsiyələr konkret şəkildə şərh edilmişdir.

Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:

---

[14]Azərbaycan Respublikası Regionlarının 2004-2008-ci ilərdə Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı. Bakı: Nurlar, 2004, 160 s.; Azərbaycan Respublikası Regionlarının 2009-2013-cü illərdə Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı. http://dgk.nmr.az/files/uploader/2009.04.14_80.pdf ; Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı. http://www.e-qanun.az/framework/27284

1. Regional planlaşdırma, regional idarəetmə sisteminin vacib elementi kimi // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2006, №1 (5), s. 83-85.
2. Yetişən nəslin iqtisadi tərbiyəsi // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2007, №3 (11), s. 148-150.
3. Regionda sahibkarlıq fəaliyyətinin formalaşması prosesi // Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2007, №4 (12), s. 96-98.
4. Naxçıvan MR-da demoqrafik siyasət və xarici iqtisadi əlaqələr // Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi Əsərləri, 2010, №4, s. 249-254.
5. Kiçik biznesin hüquqi bazasının yaradılması məsələlərinə bir baxış // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, 2011, №1 (37), s. 175-178.
6. Kiçik və orta sahibkarlığın inkişafının regional aspektləri // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, 2011, №2 (39), s. 155-158.
7. Naxçıvan MR-da kiçik və orta sahibkarığın inkişaf məsələləri / Naxçıvan Müəllimlər İnstitutu. Heydər Əliyev 88. Müasir təlim metodları və yeni pedaqoji texnologiyanın təlim-tərbiyə prosesində tətbiqi mövzusuna həsr edilmiş elmi-praktiki konfransın materialları. Naxçıvan, 06 may 2011, s. 98-100.
8. Azərbaycanda yenilikçi girişimciliyin gelişimi // Kültür Evreni jurnalı, Ankara, 2011, №10, s. 160-165.
9. Актуальные проблемы развития малого и среднего предпринимательства в Нахичеванской Автономной Республике Европейски Перспективы // Науково-Практичний журнал, 2013, №7, с. 223-227.
10. Kiçik və orta biznesin formalaşmasının nəzəri metodoloji problemləri / Naxçıvan Müəllimlər İnstitutu. Naxçıvan MR 90. Naxçıvan MR-nın 90 illik yubleyi ilə əlaqədar "Təhsil kuriku-lumları: nəzəri problemlər" mövzusunda keçirilmiş Respublika konfransının materialları (15.04.2014), NMİ-2014, s. 174-179.
11. Naxçıvan MR-da məşğulluq səviyəsinin təkmilləşdirilməsi / Bakı Biznes Universiteti. Azərbaycan Kooperasiya Universiteti. AMEA-nın İqtisadiyyat İnstitutu. Azərbaycan Respublikasının Auditorlar palatası. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 91 illiyinə həsr olunmuş "Sivil bazar iqtisadiyyatı münasibətlərinin inkişaf istiqamətləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans. Bakı, 2014, s. 466-473.

12. Naxçıvan MR-da kiçik və orta biznesin inkişaf meylləri // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, 2014, №6 (62), s. 167-173.
13. Kiçik və orta biznesin inkişafının məşğulluğa təsirinin yüksəldilməsi istiqaməti / "Tədris prosesinin təkmilləşdirilməsi və müasir təhsil konsepsiyaları" mövzusunda beynəlxalq konfransın materialları. Naxçıvan, 2014, s. 159-160.
14. Kiçik və orta biznesin inkişafının məşğulluğa təsiri və tənzimlənməsi / "Elm və Təhsil" jurnalı, Bakı, 2014, s. 91-94.
15. Kiçik və orta biznesin formalaşmasının nəzəri metodoloji problemləri / Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr edilmiş Respublika elmi konfransı. Naxçıvan, 2015, s. 203-207.
16. Kiçik və orta biznesin lnkişafı ilə əhalinin məşğulluq səviyəsi arasındakı əlaqə və dünya təcrübəsi / Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar. Beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 2015, s. 106-108.
17. Biznesin əsasları fənnində "Biznesin sosial-psixoloji aspekləri" mövzusunun tədrisinə dair / Azərbaycanda təhsil siyasətinin prioritetləri: müasir yanaşmalar. Beynəlxalq elmi konfransın materialları. Naxçıvan, 2016, s. 127-128 və s.

**Эльдениз Орудж оглы Гасанлы**

# Развитие малого и среднего бизнеса и проблемы обеспечения занятости населения (на примере Нахчыванской АР)

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, 3 глав, заключения и списка использованной литературы. Во введение диссертации обоснована актуальность темя, определены цели и задачи, а также объект, предмет, научная новизна, информационная база и практическая значимость работы.

Первая глава диссертации называется «Теоретико-методологические основы развития малого и среднего бизнеса и занятости населения». В этой главе описывается сущность малого и среднего бизнеса, исследуются его теоретико-методологические основы, изучаются условия урегулирования проблем занятости, а также связь между развитием малого и среднего бизнеса и уровнем занятости населения.

Вторая глава диссертации называется «Развитие малого и среднего бизнеса и оценка уровня занятости населения в Нахчыванской Автономной Республике». В этой главе исследуются современное состояние и тенденции развития малого и среднего бизнеса в Нахчыванской АР, изучаются возможности воздействия малого и среднего бизнеса на занятость, а также роль малого и среднего бизнеса в обеспечении экономической безопасности.

Третья глава диссертации называется «Пути повышения уровня занятости в Нахчыванской АР». В этой главе конкретно, на примере Нахчыванской АР, изучаются направления повышения воздействия развития малого и среднего бизнеса на занятость, показываются пути усовершенствования государственного урегулирования предпринимательства.

В заключение проведены обобщения, путем определения роли малого и среднего бизнеса выдвигаются научно-обоснованные предложения для обеспечения занятости в Нахыванской АР.

**Eldaniz Oruj oglu Hasanli**

# Development of small and medium-sized business, and the problems of employment of population (example of Nakhchivan AR)

## SUMMARY

Dissertation consists of introduction, three chapters, conclusion and references. The introduction of the dissertation provides the relevance of the topic and determines the goals and tasks, including the subject and the object of the work, its novelty, information base and practical significance.

The first chapter of the dissertation is entitled “Theoretical and methodlogical principals of the development of small and medium-sized business, and employment of population”. The chapter provides the essence of small and medium-sized business, and examines its theoretical and methodological principals, and studies the employment regulation conditions, the relation between the development of small and medium-sized business, and employment of population.

The second chapter of the dissertation is entitled “Development of small and medium-sized business in Nakhchivan AR, and evaluation of employment of population”. The chapter studies state-of-the-art of small and medium-sized business in Nakhchivan AR, and its development tendencies. It examines the impact opportunities of small and medium-sized business on the employment, and explores the role of small and medium-sized business in providing economical security.

The third chapter of the dissertation is entitled “Improving an employment rate in Nakhchivan AR”. The chapter studies improvement directions of small and medium-sized business and the employment rate in the example of Nakhchivan AR. It provides improvement ways of state regulation of ownership.

The conclusion of the dissertation includes the generalization. It gives scientifically proven proposals defining the role of small and medium-sized business in providing employment in Nakhchivan AR.

Çapa imzalanmışdır: 24.05.2018
Formatı: 60/84, 16/1
Sifariş: 115
Sayı: 100

***AMEA Naxçıvan Bölməsinin "Tusi" nəşriyyatında çap edilmişdir.***

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**НАХЧЫВАНСКОЕ ОТДЕЛЕНИЕ**

***На правах рукописи***

**ЭЛЬДЕНИЗ ОРУДЖ ОГЛЫ ГАСАНЛЫ**

# РАЗВИТИЕ МАЛОГО И СРЕДНЕГО БИЗНЕСА И ПРОБЛЕМЫ ОБЕСПЕЧЕНИЯ ЗАНЯТОСТИ НАСЕЛЕНИЯ
**(на примере Нахчыванской АР)**

**Специальность: 5308.01 – Общая экономика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по экономике**

**НАХЧЫВАН – 2018**